Dünyaşöhrətli şərqşünas-alim

Azərbaycanın elm fədaisi, dünyaşöhrətli şərqşünas-alim Rüstəm Əliyev zəngin bir yaradıcılıq yolu keçmişdir. O, XX əsrdə dünyada məşhur elm ocaqlarından biri hesab edilən Sankt-Peterburq Universitetinin Şərqşünaslıq fakültəsində mükəmməl təhsil almış, görkəmli şərqşünas-alim A.E.Krımskinin tələbəsi olmuşdur. O, təhsil aldığı illərdə Şərq dilləri və ədəbiyyatını mənimsəməklə yanaşı, Avropa dillərinə də mükəmməl yiyələnmişdir. 1951-ci ildə Sankt-Peterburq Universitetini fərqlənmə diplomu ilə bitirən Rüstəm Əliyev təhsilini Universitetin aspiranturasında Şərqşünaslıq elminin mətnşünaslıq sahəsi üzrə davam etdirmiş və bu sahədə böyük uğurlar qazanmışdır.

1954-cü ildə "Sədinin "Gülüstan" əsərinin elmi-tənqidi mətni" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edən Rüstəm Əliyev 1955-ci ildə o zamankı SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna dəvət olunmuş və burada (1955-1971-ci illər) kiçik elmi işçi vəzifəsindən İnstitutun Şərqşünaslıq bölməsinin rəhbəri pilləsinə qədər yüksəlmişdir.

O, 1959-cu ildə Ömər Xəyyamın 293 rübaisini rus dilinə tərcümə edərək Məhəmməd Nuri Osmanovla birgə məşhur şərqşünas Y.E.Bertelsin rəhbərliyi ilə 2 cilddə, Rusiyada çap etdirmişdir. Rüstəm Əliyev 1965-ci ildə Firdovsinin "Şahnamə"sinin elmi-tənqidi mətnini hazırlayaraq Y.E.Bertels və N.M. Osmanovla birgə Moskvada nəşr etdirmişdir.

1968-ci ildə "Sədi Şirazinin poetik irsinin problemi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edən Rüstəm Əliyev öz bacarıq və bilikləri ilə dünya alimlərinin diqqətini cəlb etmiş və bir sıra xarici dövlətlərin elmi müəssisələrində mühazirələr oxumaq üçün dəvətlər almışdır. Hindistan, Misir, Mərakeş, İran, İraq, Suriya, Tunis, Yaponiya, ABŞ, Böyük Britaniya elmi mərkəz və universitetlərində oxuduğu mühazirələr Rüstəm Əliyevə əsl dünya şöhrəti gətirmişdir.

Görkəmli şərqşünas 1972-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasında çalışmışdır.

Professor Rüstəm Əliyevin Azərbaycan Nizamişünaslığının inkişafında da müstəsna rolu olmuşdur. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı onu çox gənc yaşlarından cəlb etmişdi. Ümumiyyətlə, onun nizamişünaslıqda fəaliyyətini iki mərhələyə ayırmaq olar:

Hələ gənc ikən Şərq klassiklərinin əsərlərinin mətnləri üzərində çalışmalar aparan Rüstəm Əliyev Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərini ilk dəfə fars dilindən rus dilinə tərcümə etmiş, özünün yazdığı ön söz və şərhlərlə birgə, şair P.Antokolskinin poetik çevirmələri əsasında 1957-ci ildə Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında çap etdirmişdir. Nizaminin ölməz eşq dastanının - "Leyli və Məcnun" əsərinin 227 səhifədən ibarət olan bu nəfis tərcüməsi o dövrün nizamişünaslığında mühüm əhəmiyyətli hadisələrdən biri idi.

Bunun ardınca, 1960-cı ildə Rüstəm Əliyev Nizami Gəncəvinin lirikasını rus dilində, ön söz və şərhlərlə birgə Moskvada "Dövlət nəşriyyatı" (Qoslitizdat) tərəfindən çap etdirir. Qeyd edək ki, bu nəşrdə K.Lipskerov, S.Şervinski, Bruni, Rumer kimi şairlərin Nizami lirikasından etdikləri poetik tərcümələr daxil edilmişdi və sonrakı nəşrlərə R.Əliyev Arseniy Tarkovskinin də tərcümələrini əlavə etmişdi. Böyük alim Nizami irsinin dünya oxucularına mükəmməl çatdırılması yolunda daim çalışırdı.

Rüstəm Əliyevin nizamişünaslıq fəaliyyətinin ən məhsuldar dövrü XX əsrin 80-ci illərinə təsadüf edir.

Məlumdur ki, bu dövrdə Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin 1979-cu ilin yanvar ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında imzaladığı qərarı ilə nizamişünaslıq problemlərinin həlli ümumittifaq miqyasında misli görünməmiş bir məcraya yönəldi. 1981-ci ilin avqust ayında AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ilk dəfə olaraq, ayrıca "Nizamişünaslıq" şöbəsi yaradıldı və şöbəyə rəhbərlik professor, Əməkdar elm xadimi Rüstəm Əliyevə həvalə olundu. Heydər Əliyevin xüsusi tapşırığı ilə respublikada, o cümlədən Nizamişünaslıq şöbəsində Nizami Gəncəvi "Xəmsə"sinin yenidən nəşri, şairin əsərlərinin Azərbaycan və rus dillərində filoloji tərcümələri sahəsində, eləcə də həyatının, ədəbi mühitinin və yaradıcılığının tədqiqi sahəsində gərgin iş gedirdi. O zaman ayda bir dəfə nizamişünaslıq şöbəsinin rəhbəri olaraq Rüstəm Əliyev o dövr Mərkəzi Komitənin İdeoloji məsələlər üzrə katibi Həsən Həsənova hesabat verir və o da Nizamişünaslıq sahəsindəki işlərin gedişi haqqında ölkənin başçısı Heydər Əliyevə məruzə edirdi. O illərdə Nizami irsinə çox böyük dövlət qayğısının şahidi olmuşuq, həm də bir alim olaraq, Rüstəm Əliyevin şəxsiyyətinə hörmət, izzət, mütəxəssis bir alimə verilən qiymət çox yüksək idi.

80-ci illər nizamişünaslığının ən böyük nailiyyətlərindən biri Nizami əsərlərinin Azərbaycan və rus dillərində filoloji tərcümələridir ki, bu işlərin ərsəyə gəlməsində Rüstəm Əliyevin rolu danılmazdır. O, dünya mətnşünaslıq elmində və tərcümə sənəti sahəsində gedən yeni prosesləri izləyirdi. İngilis, rus, fars dillərini mükəmməl bilirdi. Şöbədə daim filoloji tərcümələrin əhəmiyyətini izah edərdi. Məlumdur ki, XX əsrin əvvəllərində hərfi tərcümə nəzəriyyəsi üstünlük təşkil edirdi. A.V.Krivtsov, E.Lann, İ.Aksenov, B.Yarxo, A.A.Smirnov və başqalarından ibarət hərfi tərcüməçilər məktəbi yaranmışdı. Sonralar bu tərcümələr özlərini doğrultmadı və bu üsulu mexaniki metod adlandırdılar.

Sonrakı dövrdə tərcümə metodologiyası inkişaf edib təkmilləşdikcə, adekvat tərcümə nəzəriyyəsi yarandı və geniş vüsət aldı. Bu proses dünyada gedirdi.

Məlumdur ki, Azərbaycanda XX əsrin 40-cı illərindən üzü bəri Nizami əsərlərinin poetik tərcümələri H.Araslı, M.Arif, M.Əlizadə və başqa görkəmli şərqşünas alimlərin səyi nəticəsində o dövrün tələb və prinsiplərinə uyğun uğurla həyata keçirilmişdir. Həmin dövrdə A.Şaiq, S.Vurğun, R.Rza, N.Rəfibəyli, Ə.Vahid, S.Rüstəm, M.Rzaquluzadə, Mir Cəlal, M.Rahim, O.Sarıvəlli, Cəfər Xəndan və başqalarının tərcümələrinə çox ciddi tələblər qoyulurdu, yəni qarşı dildə fikrin ekvivalent verilməsi, fikrin maksimum dərəcədə adekvat çatdırılması! Bu həm də çox çətin bir məsələ idi.

Zaman keçdikcə, tərcümə növləri genişləndi və filoloji tərcümələr mətnin məzmun, üslub və bədii keyfiyyətlərini dəqiq əks etdirməsi, elmi şərhlərə əsaslanması ilə daha əhəmiyyətli hesab olundu. Avropa elminin bu sahədə təcrübəsi vardı. Alimlər filoloji tərcümələrə daha çox üstünlük verirdilər. Bu dövrün filoloji tərcümələri Azərbaycan elminin nailiyyətlərindən hesab olunmalıdır. Rüstəm Əliyev bu işə ilk təşəbbüs göstərən alimlərdəndir. O, Nizami Gəncəvinin "Sirlər xəzinəsi", "Yeddi gözəl" əsərlərinin Azərbaycan və rus dillərinə, "Leyli və Məcnun"un rus dilində filoloji tərcümələrini bu illərdə ərsəyə gətirmişdir.

R.Əliyevin Nizami Gəncəvinin həyatı və yardıcılığının araşdırılması sahəsində də əhəmiyyətli tədqiqatları vardır. "Nizami.Qısa biblioqrafik məlumat" (Bakı,1983), "Nizaminin tərcümeyi-halına dair yeni araşdırmalar", "Nizami poemalarında" Qıpçaq-Oğuz gözəli", "Nizaminin naməlum müasiri", "Yeganə səfər", "Ölməz eşq haqqında poema"(Poema o bessmertnoy lyubvi) adlı kitab və məqalələrində, Nizami əsərlərinin tərcümə və nəşrinə yazdığı müqəddimələrdə və şərhlərdə şairin həyat və yaradıcılığı haqqında qiymətli araşdırmalar aparmışdır. Xüsusən Nizaminin atası, babası haqqında dəqiq araşdırmalar çox qiymətlidir. O, gətirdiyi faktlarla sübut edirdi ki, Nizaminin babasının adındakı "Zəki Müəyyəd fid-din" birləşməsi din xadimlərinə məxsus titulun əlamətidir. Şairin həyat yoldaşı Afaq (Appaq) haqqında, Atabəy Qızıl Arslanla görüşü haqqında dəqiq elmi faktlar gətirir və bir çox təhrifləri aradan qaldırmağa çalışırdı. Nizaminin türk mənşəyinə bağlılığı onun tədqiqatlarında xüsusi yer tuturdu.

Alim Nizami yaradıcılığını olduğu kimi şərh etməyə çalışırdı. Nizami sənətinin bənzərsizliyini onun humanizmində, ilahi eşq idealının mükəmməlliyində görürdü. O yazırdı: "Mərdomi", "Adəmi" terminləri Nizamiyə qədər də işlənmişdi, lakin bu terminin "humanizm" mənasında işlənməsi müasirlərindən daha çox Nizamiyə məxsusdur. Nizami yaradıcılığında bu kəlmələr artıq yeni fəlsəfi - terminoloji anlamda - humanizm mənasında işlənmişdir. Bu nəzəriyyəyə görə, eşq varlığın səbəbi və mənbəyidir. Onu Tanrı varlıqdan əvvəl yaratmışdır. Eşq insan təbiətinin ən böyük xislətidir və ağıl ilə birlikdə insanı Tanrının yaratdığı canlıların hamısından yüksəklərə ucaldan ən gözəl nemətdir".

R.Əliyev Nizami dövrü Gəncə ədəbi mühitinə daxil olan şairlərin əsərlərinin tərcümə olunaraq nəşri sahəsində mühüm fəaliyyət göstərmişdir. Onun dünya nizamişünaslığına verdiyi töhfələrdən biri Nizaminin müasiri olmuş, Gəncə ədəbi mühitinin yetirdiyi alim və şair Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsərinin fars dilindən rus dilinə tərcümə edərək, müqəddimə və şərhlərlə 1991-ci ildə çap etdirməsi və dünya ictimaiyyətinə çatdırması idi.

Hər şeydən əvvəl, alim bu monumental əsərə yazdığı müqəddimədə XII əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı Gəncədə yaranan ədəbi mühitin xüsusi keyfiyyətlərini təhlil edirdi və belə bir nəticəyə gəlirdi ki, Gəncə ədəbi mühiti Atabəylərin qayğısı ilə daim genişlənmiş, Gəncə sarayı müsəlman dünyasının müxtəlif guşələrindən alim və şairləri özünə cəlb etmişdir.

Belə bir zəngin ədəbi-ictimai mühitdə - Ömər Gənci, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Qivami Mütərrizi, Əbubəkr ibn Xosrov əl-Ustad, Zəhirəddin Şəmkuri kimi dünyaşöhrətli alim və şairləri yetişmişdir.

Gəncə Atabəylər sarayında yaşayıb - yaradan sənətkarlardan biri Əbubəkr ibn-Xosrov əl-Ustadın 17 fəsildən ibarət "Munisnamə" əsəri bədii nəsrlə yazılmış və ideya-fəlsəfi məziyyətlərilə çox mühüm əhəmiyyətə malikdir. İslami-bəşəri ideyaların təməli üzərində qurulan bu əsərin ilk hissələri İmam Əli İbn Əbutalibin müdrik kəlamları və oğlu İmam Hüseynə vəsiyyəti ilə başlayır: "1. Çoxlu qardaşlarınız olsun ki, onların sayəsində ucala biləsiniz. 2. Öz şəfqətinizdən səxavətli olun ki, verən əl, alan əldən yaxşıdır. 3. Doğma və yaxınlarınızı incitməyin, onları incidən kəs sanki sağ əlilə özünün sol əlini incidir" və sair. Əsərin ideyasında ilahi vəhdət - əqidə birliyi, bəşəri birlik, humanizm dayanır. Təsadüfi deyildir ki, müəllif "Munisnamə"nin V fəslinə məşhur filosof Şeyx Əhməd ibn Məhəmməd əl-Qəzzalinin "Quşlar haqqında traktat" adlı simvolik əsərini daxil etmişdir.

Rüstəm Əliyev az yaşadı, amma mənalı, zəngin bir ömür yaşadı. 89-cu illərdən başlayaraq torpaqlarımız düşmən işğalına məruz qaldığı dövrdə hamı kimi vətən dərdinə ürəkağrısı ilə yanırdı. 1991-ci ildə M.Ə Rəsulzadənin "Böyük Azərbaycan şairi Nizami" kitabını Bakıda çap etdirdi. Bu kitab Türkiyədə, Ankarada 1949-cu ildə çap olunmuşdu. Nizaminin həyatı və yaradıcılığının mühüm əhəmiyyətə malik bu kitabın Azərbaycanda çapı o dövrdə hadisə idi.

Professor Rüstəm Əliyevin şöbəyə daxil olması ilə, hər gün iki saatlıq seminar dərsləri başlardı. Elmi biliklərini bizə həvəslə öyrədirdi, yorulmaq bilmirdi. Aspirant və dissertantlarına əsl müəllim, qayğıkeş ata münasibəti ilə yanaşırdı. Yazılarımızda zərrə boyda işıq ucu - yeni bir fikir görsəydi, sevinci aşıb-daşırdı.

Böyük alimin yetişdirdiyi neçə-neçə tələbəsi bu gün də onun keçdiyi çətin və əzəmətli yolu davam etdirir. O böyük ustada Allahdan rəhmət diləyirəm!

Zəhra ALLAHVERDİYEVA,
AMEA-nın Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent.

Respublika.- 2019.- 23 avqust. S. 3.